Region təhsili

Mingəçevir məktəbindən reportaj

# Bölgə məktəbinin kreativ müəllimləri

## Rollu oyunlar, əyləncəli dərs metodları ilə öyrənmə

Kür çayının sahilində yerləşən, 1247 şagirdi, 220 müəllimi olan Mingəçevir şəhər Nizami Gəncəvi adına 8 nömrəli tam orta məktəb Mərkəzi Aran regionunun tanınan təhsil müəssisələrindəndir. Mingəçevirin şagird sayı ən çox olan bu təhsil ocağında ibtidai siniflərdən başlayaraq dərslərin müasir təlim texnologiyaları və metodlarla keçirilməsi, valideynlərin öyrənmə prosesində fəal iştirakı hər bir şagirdin uğurlu gələcəyinə zəmin yaradır.

İdarəetməni təkmilləşdirmək niyyətində olan və bunun üçün öz bacarıqlarını da təkmilləşdirən məktəb direktoru Aysel Xəlilova 2021-ci ildə ADA Universitetinin Qazax filialında keçirilən təlimlərə qoşularaq “Bir müəllimin manifesti” proqramının iştirakçısı olub. Daha sonra 6 həftə ərzində ABŞ məktəblərində təlim-tədris prosesini yaxından izləyib, valideyn iclaslarının təşkili, təlim metodları və kurikulum yenilikləri ilə maraqlanıb. O, məktəbi də ABŞ-də topladığı, eyni zamanda, beynəlxalq təlimlərdən qazandığı təcrübə əsasında inkişaf etdirməyi hədəf seçib. Direktorun sözlərinə görə, bu beynəlxalq təcrübə məktəbdəki innovativ yanaşmaların, valideyn və müəllimlərin əməkdaşlığının daha da güclənməsinə səbəb olub.





**Məktəblilərin beynəlxalq uğurları**

Məktəbin istedadlı şagirdləri beynəlxalq arenada potensiallarını nümayiş etdirərək və uğur qazanırlar. Bu tədris ilində 6-cı sinif şagirdi Ziya Abdullazadə Beynəlxalq Kopernik Riyaziyyat Olimpiadasının 1-ci turunda gümüş medala, 4-cü sinif şagirdi Dəniz Hüseynli isə bürünc medala layiq görülərək Nyu-York şəhərində keçiriləcək final turunda iştirak hüququ qazanıblar.






A.Xəlilova uğurlardan bəhs edərək bildirib ki, bu nailiyyətlər məktəbimizdə şagirdlərin istedadının erkən yaşlardan inkişaf etdirilməsinin və təhsilin müasir yanaşmalarla dəstəklənməsinin birbaşa nəticəsidir: “Uğurlar şagirdlərimizin qlobal səviyyədə rəqabətə hazır olduqlarını deməyə əsas verir. Biz məktəbdə “Könüllü məktəblilər” layihəsinə start verdik. Layihənin komandasına cəlb olunan şagirdlər yalnız məktəbin nizam-intizamının qorunmasında deyil, həm də müxtəlif layihələrdə bilavasitə iştirak edirlər. Onlar “Şagird davranış qaydaları”nı təhlil edir, hesabatlar hazırlayır və məktəbin sosial fəaliyyətlərinin artırılması, oxu bacarıqlarının formalaşdırılması ilə bağlı müxtəlif təşəbbüsləri reallaşdırırlar.

Bundan əlavə, məktəbdə 10 şagirddən ibarət Şagird Şurası yaradılıb. Şura müəllim və yaradıcı şagirdlərlə birgə müxtəlif tədbirlər keçirir. Akademik bacarığı yüksək olan bəzi şagirdlərin komanda ilə işləmə bacarığının formalaşmasında çətinliklər yarana bilir. Ona görə də bu məsələni vaxtında həll etmək üçün xüsusi tədbirlər görürük. Məqsədimiz bütün şagirdlərin həm fərdi, həm də komanda şəklində işləmə bacarıqlarını inkişaf etdirməkdir”.

**İbtidai siniflərin tədris prosesi**

Aysel müəllim bildirir ki, uğurun sirləri təməl biliklərə söykənir. Bu baxımdan məktəbdə ibtidai siniflərin fərqli tədris metodlarına xüsusi önəm verilir. Sözügedən siniflərə daxil olaraq buradakı dərs prosesi ilə yaxından tanış olduq.

“Şagirdlərimizin məktəbli formasında dərsə gəlməsi, “Şagird davranış qaydaları”na əməl etməsi onların nizam-intizam və öyrənməyə olan həvəslərinin açıq sübutudur”, - deyən məktəbin müəllimi Nəzakət Cəfərli şagirdlərini tez-tez sınaq imtahanlarına cəlb edir və bununla onların ümumi nəticələrinin təhlilini aparır.

Sona Cabbarova isə şagirdlərin diqqətini dərsə cəlb etmək üçün yeni, əyləncəli və əyani metodlardan istifadə etdiyini qeyd edir.

Yasəmən Yolçuyevanın öz dərsində interaktiv metodlara üstünlük verildiyinin əyani şahidi olduq. Dərsdə mövzunu slaydlar vasitəsilə izah edən müəllim əyani vasitələrdən də istifadəyə üstünlük verməklə şagirdlərin mövzunu daha yaxşı mənimsəməsinə yardım edir. Yasəmən müəllimin dediyinə görə, bu metod şagirdlərin yalnız nəzəri biliklər deyil, həm də praktiki təcrübə qazanmasına şərait yaradır.

**“Yaşıl sinif”**

38 ildir ki, ibtidai sinif müəllimi işləyən Zəhra Əmirova kurikulum üzərində qurulan metodların gözəçarpan nəticələr verdiyini, şagirdlərin praktiki bacarıqlarının daha da inkişaf etdiyini vurğulayır. Rollu oyunlar, əyləncəli dərs metodları və obrazların səhnələşdirilməsi şagirdlərin yaddaşına daha yaxşı təsir göstərir.

38 illik pedaqoji təcrübəsi olan Elmira Səmədova şagirdlərin bilik səviyyəsinin yüksəkliyinin müəllimdən asılı olduğunu bildirir. Şagirdləri ilə birlikdə “Yaşıl sinif” layihəsini hazırlayan müəllim deyir ki, belə bir sinfin hazırlanması şagirdlərin əməkdaşlığını və yaradıcı yanaşmalarını gücləndirir. Bu layihə həm şagirdlərin dərsdə fəal iştirakı, həm də valideynlərin məktəblə sıx əlaqəsinin təzahürüdür.





**Məzunun elmi fəaliyyətinin nəticələri beynəlxalq səviyyədə tanınır**

Uğurlu məzunlar yetişdirmənin təməli ibtidai siniflərdən başlanır. Bu mərhələdə uşaqların əldə etdiyi fundamental biliklər onların gələcək akademik və peşəkar uğurlarına zəmin yaradır.

Məktəbin fəaliyyət dövründə bu təhsil ocağını yüksək nailiyyətlərlə bitirərək ali məktəbə 700 balla daxil olan yeganə məzunu İsmayıl Kazımov hazırda nüfuzlu şirkətlərin birində çalışır.

Digər bir məzun Yusif Əfəndizadənin məktəb illərində qazandığı fundamental bilik və elmi düşüncə tərzi onun gələcəkdə kimya elminə yönəlməsində mühüm rol oynayıb. Hazırda Fransada “Nukleozid, nukleotid və RNT-gen kimyası” üzrə doktorantura təhsili alan bu gənc kimyəvi sintez, kimyəvi biologiya və gen kimyası sahəsində mühüm elmi nailiyyətlər əldə edir. Onun tədqiqatları t-RNT analoqlarının stabil sintezi və bioaktiv molekulların inkişafına yönəlib. Yusif Əfəndizadənin elmi fəaliyyətinin nəticələri beynəlxalq səviyyədə də tanınır.

Yusif Əfəndizadənin riyaziyyat müəllimi, 8 nömrəli məktəbdə çoxsaylı uğurlu məzunun yetişməsində payı olan Çimnaz Mustafayeva bütün şagirdlərinə övlad qayğısı ilə yanaşdığını, amma bununla belə, onlara qarşı çox tələbkar olduğunu bildirir. O, bu uğurların arxasında müəllim və şagirdin birgə zəhmətinin dayandığını qeyd edir: “Ali məktəbə bu il də yüksək balla daxil olan məzunlarımız var. Zülfiyyə Mahmudova 658, Şəbnəm Əgərova isə 646 bal toplayıb. Biz onların hər biri ilə fəxr edirik!”.

**Aynur ARAZ,**
*Mərkəzi Aran və Şəki-Zaqatala üzrə regional təmsilçi*